№ 266 ISSN 1027-3875 31 mart 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.RZAQIZI
Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. RZAQIZI
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN
Bu nömrədə



XƏZƏR UNİVERSİTƏSİNDƏ 26-CI MƏZUNLUQ MƏRASİMİ 5



"HİSSLƏRİMİ GİZLƏDƏ BİLMƏDİYİM ÜÇÜN ZƏRƏR ÇƏKMİŞƏM" 8



Халил МЕДЖИДОГЛЫ
ДОСТОЙНЫЙ ПРЕДСТАВИТЕЛЬ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ 16



Нигяр БАГИРОВА
ЧЕГО НЕ ХВАТАЕТ СТУДЕНТАМ УНИВЕРСИТЕТА ХАЗАР 18

Joakin Paşenko Neves
HƏDƏ 22



Пианистка из Парижа - Ренара Ахундова 29

USAQ DÜNYASI
35

UNİVERSİTƏ XƏBƏRLƏRİ

ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Martın 19-da Xəzər Universitəsi Elmi-İnzibati Şurasının növbəti iclası olmuşdur. İclasa universitənin prorektoru, professor **Məhəmməd Nuriyev** sədrlik etmişdir. İclasda:

Məzunlar;

Vəzifəyə təyin olunma;

Tələbə Məclisinin prezidenti seçkisinin nəticələri haqqında məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Şura məzunlar məsələsi ilə əlaqədar Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı **Rafiq Əhmədov,** İqtisadiyyat və menecment fakültəsinin dekanı **Məhəmməd Nuriyev,** Humanitar və sosial elmlər, Hüquq fakültələrinin dekanı **Cabir Xəlilov,** Tibb, stomatologiya, ictimai səhiyyə fakültəsinin dekanı **Nigar Bağırova** və Təhsil fakültəsinin dekanı **Elza Səmədovanın** məlumatlarını dinləyərək, məzunların təqdim olunmuş siyahısını təsdiq etdi.

Şura üzvlərinə məlumat verildi ki, bu buraxılışda universitəni 78 məzun bitirir. Onlardan 51-i bakalavrdır. Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsini bitirən 5 məzun ali təhsil almışdır. Məzunlardan 21-i magistrdir. 1 nəfər PhD dərəcəsi almışdır.

Vəzifəyə təyin olunma məsələsi ilə əlaqədar sədrlik edən M. Nuriyev məlumat verərək bildirdi ki, İsgəndərov Murad Nuhbala oğlu rektorun 2 mart 2009-cu il tarixli qərarı ilə universitənin inzibati şöbəsinin müdiri təyin olunmuşdur. O, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda idarəetmə ixtisası üzrə bakalavr pilləsini bitirib. 1996-2002-ci illərdə Türkiyədə Dumlu Pinar universitəsində oxuyaraq magistr və PhD dərəcələrini alıb. 2001-ci ildən etibarən Azərbaycan Dövlət İqtisad Universitetində baş müəllim vəzifəsində çalışır.

Elmi-İnzibati Şuranın qərarı ilə **İsgəndərov Murad Nuhbala oğlu** inzibati şöbənin müdiri vəzifəsinə təsdiq olundu.

Üçüncü məsələ haqqında da M. Nuriyev məlumat verərək bildirdi ki, fevralın 28-də Xəzər Universitəsi Tələbə Məclisinin prezidenti seçkisi keçirilmişdir. Seçkidə 934 tələbə iştirak edib. 519 tələbə Pərviz Muradova səs verib və o, Tələbə Məclisinin prezidenti seçilib. Pərviz Muradov 2006-cı ildən İqtisadiyyat və menecment fakültəsində təhsil alır, hal-hazırda 3-cü kurs tələbəsidir. **Pərviz Muradov** Elmi-İnzibati Şuranın üzvlərinə təqdim olundu.

Bununla da Elmi-İnzibati Şuranın növbəti iclası başa çatdı.

XƏZƏR UNİVERSİTƏSİNDƏ 26-CI MƏZUNLUQ MƏRASİMİ

Martın 28-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda həm bakalavr, həm də magistr proqramları üzrə 26-cı məzunluq mərasimi keçirildi. Mərasim, ənənəyə görə, sözləri Hamlet İsaxanlının, musiqisi Vasif Adıgözəlov və Ramiz Mustafayevin olduğu "Xəzər Universitəsinin himni" ilə açıldı.

Mərasimin aparıcıları – Humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbələri Elnarə Əliyeva və Orxan Abdullayev tədbiri açaraq, iştirakçılara müraciət etdilər:

– Hörmətli rektor, mehriban dekanlar, sevimli müəllimlər, əziz tələbələr və zəhmətkeş valideynlər! Elm, təhsil, bilik, mədəniyyət, səadət, məhəbbət dənizi olan Xəzər Universitəsinin səhnəsindən sizləri salamlayırıq.

Tələbəlik illəri... Kimin üçünsə bu illər yeni başlayır, kimin üçünsə artıq xatirəyə çevrilir. Elə bizi bu məclisə gətirən də gəncliyin qaynar, ehtiraslı, duyğulu baharı olan tələbəlik illəri ilə vidalaşan, bu gündən ali təhsilli mütəxəssis kimi müstəqil həyata qədəm qoyan gənclərimiz – məzunlarımızdır. Deməli, gənclərin qəlbinə işıq, könlünə sevinc gətirən "Xəzər"imizdə 26-cı məzunluq mərasimidir.

Hər bir şəxsin ali təhsil almaq üçün seçdiyi ali məktəb onun həyatında çox böyük rol oynayır. Nə xoş sizlərə ki, biliyinizin təkmilləşdirilməsini, dünyagörüşünüzün genişləndirilməsini, həyata baxışlarınızın dəyişdirilməsini Xəzər Universitəsinə etibar etdiniz. Və hər birinizin simasından aydın hiss olunur ki, buna heç də peşman deyilsiniz. Deyirlər ali təhsil insanın gələcək həyatının qapılarını açmaq üçün bir açardır. Siz artıq bu açara sahibsiniz. Bu münasibətlə sizin hər birinizi ürəkdən təbrik edirik!

İndi isə, ənənəvi olaraq, təbrik üçün sözü Xəzər Universitəsinin qurucusu və rektoru Hamlet müəllim İsaxanlıya veririk.



HAMLET İSAXANLININ çıxışı:

– Hörmətli müəllimlər, tələbələr, qonaqlar! Düz 18 il əvvəl, 1991-ci il martın 18-i idi. Mənə Nazirlər Kabinetindən zəng etdilər ki, Baş Nazir universitetin yaradılması haqqında qərara qol çəkib. O zaman qərarda universitetimizin adı belə idi: "İngilis dilli Azərbaycan Universiteti". O vaxta qədər isə biz təxminən 6 ay hazırlıq işi aparmışdıq. Bu hazırlıq işi çoxsaylı görüşlərdən, müzakirələrdən, sənədləşdirmələrdən ibarət idi. Və bu qərarın çıxması sadəcə bir kağız üzərində hökumətin bir icazəsi idi. Universitetin yaradılması isə uzun sürən bir proses olacaqdı. Əslində, o həmişə davam eləyəcək, çünki universitet yaradılması, onun böyüməsi, genişlənməsi, güclənməsi heç zaman dayanmayan bir işdir. Amma təsəvvür eləyin ki, o adicə bir kağız parçası bizə bir işıq oldu və biz təxminən 1 il ərzində yenə də müəyyən mənada hazırlıq işləri apardıq, iyirmi tələbə götürdük, onlardan sonra 19-u qaldı. Bir nəfər gərginliyə dözə bilmədi. Bizim 19 tələbə ilə məşğul olan 7 müəllimimiz var idi. İndiki Azadlıq prospektindəki bir binada bizə yer verdilər; inzibatçılar üçün 1, tələbələr üçün 2 sinif otağı.

Amma bu iş bizim gözlədiyimizdən çox-çox çətin bir iş imiş. Ən əsas çətinlik o idi ki, həm hökumət işçiləri, həm də müxtəlif universitet rəhbərləri arasında bizim bu yeni yaradılan univer-



siteti təhlükə kimi görənlər əmələ gəldi. Və biz böyük maneələrlə üzləşdik.Universiteti yaşatmaq üçün, yüksəltmək üçün ordan köçməli olduq. Əhmədlidə bir bağça binasının bir hissəsini icarəyə götürdük və tədrisə başladıq. Roza xanım, İsmət müəllim, Firəngiz xanım o vaxt ilk müəllimlərimizdən idilər, indi burda əyləşiblər.

Bu universiteti qurmağımızın, əlbəttə, bir sıra ideyaları var idi. Onlardan ən birincisi o idi ki, biz dünyada necə gözəl universitetlərin olduğundan, həmin universitetlərdə yüksək səviyyəli, böyük alimlərin dərs deməsindən, sərişteli mütəxəssislər yetişdirmələrindən xəbərdar idik. Arzumuz o idi ki, biz də Azərbaycanda buna bənzər bir iş görək; bizim də uşaqlar təxminən həmin universitetlərdə olan proqramlar üzrə, kitablar üzrə oxuya bilsinlər, yaxşı mütəxəssis kimi yetişsinlər; bunun üçün biz müəllimləri diqqətlə seçək, müəllimlərin özləri gedib o Qərb dünyasını görsünlər. Görsünlər ki, bu işlər necə olur. Bu qeyriadi dərəcədə çətin işin öhdəsindən müəyyən mənada gələ bildik. Doğrudan da, qısa bir zaman ərzində bizim işə götürdüyümüz bütün müəllimlər gah Amerikaya, gah Avropaya səyahət eləməyə başladılar, universitetlərə getdilər, orada dərs dedilər, dərs götürdülər. Və bizim müəllim, tələbə və inzibatçılarımızın hamısının bir yerdə gücü ilə universitet yaranmağa başladı. Bir ildən sonra elmi şuramızın qərarı ilə adını dəyişdirərək Xəzər Universitəsi elədik.



Biz istəyirdik ki, dünyadakı universitetlərlə əlaqələrimiz olsun. Bunlar doğrudan da oldu. Avropa, Amerika, Yaxın Şərq, Uzaq Şərq universitetləri ilə əlaqələr qurduq. Məsələn, mən özüm elə bu günlərdə Yaponiyadan qayıtmışam. Yaponiyanın 6 məşhur universitetində - 3 dövlət, 3 özəl universitetində görüşlər keçirdik. Biri ilə artıq



müqavilə imzaladıq. O biriləri ilə də müqavilə imzalayırıq. Yəni ali məktəb harada yerləşməsindən asılı olmadan bir dünya ali məktəbi olmalıdır. Yəni dünyada gedən işlərdən xəbərdar olmalıdır. Dünyadan gələn tələbələri oxutmağı bacarmalıdır, tələbəni dünyanın başqa universitetlərində oxumağa göndərməyi bacarmalıdır. Və hər şey ciddiyyət üzərində, keyfiyyət üzərində, həqiqət üzərində, ədalət üzərində qurulmalıdır.

Bir məqsədimiz də bu idi ki, bizim universitetdə hər kəs əməyinə görə layiq olduğunu alsın, yəni birinci növbədə tələbələrdən söhbət gedir. Yəni biz tələbələrin yaxşı oxuması üçün maksimum şərait yaradaq. Qəti surətdə onların biliyinin qiymətləndirilməsində tərəfkeşlik olmasın. Əks halda, heç keyfiyyətli təhsildən söhbət eləməyin mənası olmaz. Yəni, müasirlik və ciddilik! Bu ikisini biz

yanaşı qoymağa çalışdıq. Və ümid eləyirəm ki, buna nail olduq.

Tədricən bizim məzunlar çox gözəl yerlərdə işləməyə başladılar. Bir müddət keçəndən sonra universitəmiz, doğrudan da, şöhrət qazanmağa başladı; birinci növbədə ictimaiyyət, sonra isə işə götürən şirkətlər, xaricdəki universitetlər arasında, siyasi dairələrdə, hər yerdə Xəzər Universiteti tanınmağa başladı. Və tanınmasının ən əsas səbəblərindən biri bizim məzunlarımız oldu. Çünki məzunlarımız çalışdıqları sahələrdə yaxşı işləsələr, ciddi işləsələr, orda gözəl işlər görə bilsələr, onların ünvanına yaxşı sözlər söylənilsə, bunun ən azı bir tərəfi Xəzər Universitəsinə aid olacaq. Yox əgər nəyisə düz eləməsələr,



yaxşı işləməsələr, onda da deyəcəklər ki, bax, filan universitetin məzunu gəldi bu cür pis işlər gördü. Və biz bilirik ki, bizim məzunlarımızın adına pis söz eşidilmir.

Biz məzunlarımızla fəxr edirik. Və məzunlarımız da universitəmizlə fəxr etməyə layiqli məzunlardır və fəxr edirlər. Bu gün burada deyildiyi kimi, 26-cı məzunluq tantənəsidir. Bakalavr səviyyəsində, magistr səviyyəsində məzunlarımız diplom alacaqlar. Hərdən bir məzunlarımız doktor səviyyəsində də diplom alırlar. Bugünkü məzunlarımızın xeyli hissəsi artıq işlə təmin olunub. Amma biz arzu edirik ki, işlə təmin olunanlar daha da inkişaf eləsinlər, daha böyük miqyaslı işlərə girişsinlər, dünyanın hansı nöqtəsində istəsələr, gedib işləsinlər.

Mən hamınızı təbrik eləyirəm əziz məzun-



lar, əziz valideynlər. Bütün müəllimlərimizə təşəkkür edirəm. Hamınıza uğurlar arzulayıram.

Sonra məzunlara diplomların təqdim olunması mərasimi başlandı. Diplomları universitənin prorektoru, memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Rafiq Əhmədov, universitənin prorektoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı Məhəmməd Nuriyev, Humanitar və sosial elmlər, Hüquq fakültələrinin dekanı Cabir Xəlilov, Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsinin dekanı Nigar Bağırova və Təhsil fakültəsinin dekanı Elza səmədova təqdim etdilər.

Məzunlar universitənin rəhbərliyi və öz müəllimləri ilə xatirə şəkilləri çəkdirdilər. Aparıcılar onları bir daha təbrik edib, "Qoy yolunuz açıq, işiniz avand olsun!" – dedilər.

Mərasimdə Xəzər Universitəsinin mahnı və rəqs ansamblı konsert proqramı ilə çıxış etdi.

"Xəzər Xəbər"



"HİSSLƏRİMİ GİZLƏDƏ BİLMƏDİYİM ÜÇÜN ZƏRƏR ÇƏKMİŞƏM"

Hamlet İsaxanlı: "Xarakterim, xasiyyətim bəzən məni çətin vəziyyətlərə salıb"



Deyirlər insanlar üç qismə bölünür: alimlər, tələbələr və su üstdə saman çöpü kimi adamlar (nə öyrənən, nə də öyrədənlər). "Art-club" rubrikasının budəfəki qonağı birinci qismə aiddir – alimdir, amma incəsənətə çox bağlı olan şair-alimdir. Qonağımız hələ SSRİ dövründə ilk özəl ingilisdilli universitet yaradan və ona rektor kimi rəhbərlik etməkdə olan Hamlet İsaxanlıdır. Çox geniş əhatəli alim və böyük elmi gücə, potensiala malik olan Hamlet İsaxanlı öz yazılarında həmçinin poeziya və fəlsəfə, beynəlxalq münasibətlər, tarix, jurnalistika və digər sahələrin problemlərini də araşdırır.

Böyük həvəs və ehtirasla, güc və enerji ilə elmi araşdırmalar aparan, quruculuq işləri ilə məşğul olan Hamlet İsaxanlı, eyni zamanda, istedadlı şair kimi də geniş tanınır.

Onun şeir kitabları Azərbaycanda, Rusiyada, İranda, Gürcüstanda çap olunub. Türkiyədə, Çində çapa hazırlanıb. Üstəlik, o özü də məşhur şairlərin əsərlərini ruscadan, ingiliscədən, fransızcadan Azərbaycan dilinə ustalıqla çevirib, oxucu və mütəxəssislərin rəğbətini qazanıb. V.A.Jukovski, F.Baratinski, F.İ.Tütçev, A.Fet, S.Yesenin, N.S.Qumilyov, A.Axmatova, C.Bayron, H.Bleyk, R.Gerrik, De Neval kimi şairlər bu sıradandır.

Hamlet İsaxanlının poeziyası musiqi ilə dolu, ürəyəyatan və könülləri ehtizaza gətirəndir. Məhz buna görə onun şeirləri Azərbaycan bəstəkarlarının diqqətini cəlb edib. Çoxsaylı lirik və epik şeir və poemaları əsasında gözəl mahnılar yazılmış və musiqili tamaşalar hazırlanmışdır. Şairin "Xəzər Universitəm" şeirinə görkəmli bəstəkarlar, xalq artistləri Ramiz Mustafayev və Vasif Adıgözəlov musiqi-himn yazmış, "Xəzərimin sorağında" şeirinə Ramiz Mustafayev, "Hicran" şeirinə Vaqif Gərayzadə, "Yaşamağa nə var ki?!" şeirinə Lütfiyar İmanov, "Səni sevdim çox sadəcə", "Gözəldir", "Lalə", "İnciçiçəyi", "Külək və qız", "Tək qalmaq istəyirəm", "Tez gəlin", "Dünyam" şeirlərinə Nailəxanım İsayeva (Hamlet İsaxanlının həyat yoldaşı), "Baş açmadım bu dünyadan", "Bakı" şeirlərinə Elza Seyidcahan, "Görüş yerimiz" şeirinə Cahangir Zülfüqarov, "Qədim sual", "Möcüzəli gecə", "Uşaqlıqda qalan buludlar" və digər şeirlərinə, həmçinin şairin fəlsəfi şeirlər silsiləsi əsasında qurulmuş "Ömür yolu bircə andır" adlı tamaşaya Dilarə Qulamova könülaçan musiqi bəstələmişlər.

Hamlet İsaxanlının "Ziyarət" poemasına bütövlükdə musiqi bəstələyən Cavanşir Quliyev şairin 11 şeirini də mahnıya çevirib. Bu və başqa mahnılar və musiqili tamaşalar Brilliant Dadaşova, Lütfiyar İmanov, Flora Kərimova, İlqar Muradov, Rəşidə Behbudova, Manana Caparidze, Elza Seyidcahan, Samir Cəfərov, Fədayə Laçın tərəfindən ustalıqla ifa olunmuş, olunur, dinləyici və tamaşaçıların ürəyini oxşayır. Arif Babayev, Alim Qasımov, Nəzakət Teymurova, Zabit Nəbizadə kimi muğam ustaları da Hamlet İsaxanlı yaradıcılığına müraciət etmişlər.

- Siz böyük elmi potensiala malik olan alim, saysız kitabların müəllifisiniz. İndiki zəmanədə uşaqlara "böyüyəndə kim olmaq istəyirsən?" sualı ilə müraciət etsələr, çətin ki, "alim" cavabı verən tapılsın. Bəs Hamlet müəllim uşaqlıqda kim olmaq istəyib?

- Mən Gürcüstanda doğulmuşam. Məktəb illərində ədəbiyyatı çox sevirdim. Hər sahəyə, hər bir fənnə həvəsim, bir ehtirasım var idi. Peşə seçiminə gəlincə, mən çox çətinlik çəkirdim, çünki bir tərəfdən dəqiq elmləri çox sevirdim, xüsusilə riyaziyyatı – hamı bu sahə üzrə qabiliyyətli olduğumu deyirdi; digər tərəfdən isə ədəbiyyatı çox sevirdim və bu sahə qarşımda geniş humanitar üfüq açırdı. Mən də, yəqin ki, bir çox başqa uşaqlar kimi fikrimi tez-tez dəyişirdim, bu, normal bir haldır.

Amma qərara gəlmişdim ki, hansı sahəyə yiyələnməyimdən asılı olmayaraq, mən o sahənin alimi, peşəkarı olacağam. Bu qənaətə gəlməyimdə oxuduğum əsərlərdə və ümumiyyətlə zəmanəmizdə alimlərə olan pərəstiş və hörmət, yəqin ki, mühüm rol oynamışdı. Bizim ailədə də elmə, alimlərə çox böyük rəğbət var idi. Biz məktəbdə oxuyanda müəllimlərimiz idmançılardan, müğənnilərdən yox, məhz alimlərdən nümunə götürməyi tövsiyə edərdilər. O vaxt yaxşı oxuyan şagirdlərə və kəndimizdən çıxan alimlərə xalq qəhrəmanları kimi baxırdılar. Alim nümunəsi görkəmli filosof Camal Mustafayev idi.

- İlk yazdığınız şeirin tarixçəsini danışa bilərsinizmi?

- İlk şeirlərimi 3-4-cü siniflərdə yazmağa başlamışdım. Həmin şeirlərdə gördüyüm, eşitdiyim hadisələr əks olunurdu. Ailəmizə böyük itki baş vermiş, əmim gənc yaşlarında vəfat etmişdi. Bu məni dərindən kədərləndirmişdi. Bəlkə də bunu böyüklər qədər hiss etmirdim, amma onların dərin kədərini görürdüm və bu təsir şeirimdə əks olunmuşdu.

Cəfər Cabbarlı, Səməd Vurğun, Mikayıl Müşfiq, Molla Pənah Vaqif və digər şair və yazıçılarımızın əsərlərini, "Koroğlu" və digər folklor nümunələrimizi oxuyur, onlardan həzz alır, cızmaqaralarımda onlardan bəhrələnirdim. 6-cı sinifdə oxuyanda şeir, hekayə və iki pyesdən ibarət iki qalın "yaradıcılıq" dəftərim var idi.

Bir gün ədəbiyyatsevər, yaradıcı ruhlu müəllimlərimdən biri həmin dəftərləri məndə gördü. Alıb oxudu, dediyinə görə, çox xoşuna gəlmişdi. O, yazılarımı peşəkar yazıçılara, alimlərə göstərmək istəyəndə dəftərləri müəllimin əlindən alıb gizlətmişdim. Az yaşım olmağına baxmayaraq, görünür, müəyyən dünyagörüşünə malik idim və anlayırdım ki, yazılarım uşaq yazısı kimi gözəl təsir bağışlasa da, onlar tanıdığım, sevəsevə oxuduğum şair, yazıçı və dramaturqların yazdıqları kimi deyildi... Mən onların çap olunmasını istəmədim.

Bu günə qədər də işimdə harmoniya yaratmağa can atıram, hər bir detala fikir verirəm, dəqiqliyi və səlisliyi sevirəm, bu da qismən mənim riyaziyyatçı təbiətimdən irəli gəlir.

- Bəstəkarlarla əməkdaşlığınız necə başladı?

- Görkəmli bəstəkarlarımız Vasif Adıgözəlov və Ramiz Mustafayevlə, yaş fərqimiz olmağına baxmayaraq, dost idik. Mən təməlini qoyduğum Xəzər Universitəsinin himnini yazmaq üçün bəstəkarlar arasında müsabiqə elan etmək istədiyimi rəhmətlik Vasif Adıgözəlova bildirdim. O vaxtlar o, Bəstəkarlar İttifaqının sədri idi və soruşdu ki, sözlər kimə məxsusdur. Mən də söylədim ki, "müəllif özüməm". Bir müddət keçəndən sonra Vasif müəllim mənə Ramiz Mustafayevlə bərabər himni yazacaqlarını söylədi. Həmin himni Azərbaycan Dövlət Simfonik Orkestri ifa etdi və Azərbaycan Dövlət Xoru oxudu.

Həyat yoldaşım Nailə İsayeva musiqiçidir. Bir dəfə onun ad günündə gedib ona hədiyyə almağa tənbəllik etdim. Evdəcə "Səni sevdim çox sadəcə" şeirini yazıb ona verdim. Qonaqlarımız var idi və mən hiss etdim ki, həyat yoldaşım şeiri çox bəyəndi, təkrar-təkrar qonaqlara oxudu, ertəsi gün isə həmin şeirə musiqi bəstələdi. Düz altı ay mahnını heç kəsə vermədi. Amma günlərin bir günü bir məclisdə İlqar Muradovu dinləyib mahnını məhz bu zərif səsli ifaçıya verdi. Siyavuş Kərimi aranj (çoxsəsli musiqi tərtibatı) etdi. İlqar Muradovun ifası əla oldu.

- Deyirlər ki, riyaziyyatı bilməyən insan istedadsızdır. Razısınızmı bu fikirlə? Sizə daha çox riyaziyyat yaxındır, yoxsa poeziya?

- Riyaziyyat həddindən artıq dərin və çox gözəl bir elmdir. Bu elmin gözəlliyini onunla məşğul olanlar başa düşür, kənardan müşahidə edənlər yox. Amma o fikirlə razı deyiləm ki, riyaziyyatı bilməyən savadsız və istedadsızdır və ya hansısa digər bir sahənin görkəmli nümayəndəsi ola bilməz. Ölçü, hesab və qiymətləndirmə hər bir insana lazımdır. Amma tutaq ki, rəssam riyaziyyatı bilməsə də, gözəl rəssam ola bilir. Puşkin söyləyirdi ki, "mən riyaziyyatdan heç nə bilmirəm və bilmək də istəmirəm". Amma bu ona böyük şair olmağa mane olmadı. Poeziyanın, yoxsa riyaziyyatın mənə daha yaxın olması sualına gəlincə... İnsanın üç-beş övladı ola bilər, hamısı da bir-birindən fərqli. Amma övladların hər biri ona əziz və doğma olacaq.

- Azərbaycan SSRİ-nin tərkibində ikən siz ilk dəfə olaraq özəl, ingilisdilli universitet yaratdınız. Əsas məqsədiniz nə idi?

- Mən SSRİ-nin mövcudiyyətinin son 20 ili içində aspiranturanı da, doktoranturanı da Moskva Dövlət Universitetində və SSRİ Elmlər Akademiyasının Steklov adına Riyaziyyat İnstitutunda keçmişdim. Çalışdığım sahə daha çox Qərbi Avropa, Kanada və Birləşmiş Ştatlarda inkişaf etdiyi üçün həmin ölkələrə tez-tez səfərlərim olurdu. Ordakı maraqlı universitetləri görüb bizimkilərlə müqayisə edirdim. Anlayırdım ki, nəinki Azərbaycanda, bütün SSRİ-nin təhsilində böyük bir böhran var. Həmin böhran, demək olar ki, heç bir yeniliyin, yeni məzmun, forma və texnologiyaların tətbiq olunmamasından, köhnəliyin hökm sürməsindən qaynaqlanırdı. Rüşvət və tapşırıq sistemi baş alıb gedirdi. Mən həm azərbaycanca, həm rusca məqalələr yazdım, onlar "Kommunist" və "Bakinski raboçi" qəzetlərində dərc olundu.

Bir gün hökumət tərəfindən, Baş nazirdən mənə xəbər gəldi: "Sizin fikirləriniz xoşumuza gəlir və biz Azərbaycan universitetlərinin müasir tələblərə cavab vermədiklərini görürük. Bəlkə bir universitet yaradaq?" O zamanlar tez-tez xaricə gedib-gəlirdim, işləyirdim, amma bu qazancla böyük maliyyə vəsaiti tələb edən universitet yarada bilməzdim. Mən üç dildə (Azərbaycan türkcəsində, ingiliscə və rusca) dərc olunmuş "Xəzərin sorağında" adlı kitabımda məhz bu yaranma tarixçəsindən bəhs etməyə çalışmışam. Başımıza çox işlər gəldi. Həm iqtisadi, həm siyasi problemlər yaşadıq. Mane olanlar, intriqalar çox idi. Məqsədimiz müasir universitet yaratmaq və orada ziyalı, intellektual insanları, elm və incəsənət xadimlərini bir araya toplamaq idi. Bütün çətinliklərə baxmayaraq, bunu edə bildik.

- Xəzər Universitəsində tələbələr ixtisasından asılı olmayaraq, incəsənətin hər bir növü ilə məşğul ola bilirlər. Onların fənn seçimi necə baş verir?

- Bizim universitədə "Azərbaycan dili" və "Azərbaycan tarixi"ndən əlavə, başqa universitetlərdən fərqli olaraq, daha iki humanitar fənni ixtisasından asılı olmayaraq hamı keçir: "Azərbaycan ədəbiyyatı" və "Azərbaycan mədəniyyəti". İkincisinə musiqiyə aid fənlər, xalçaçılıq, zərgərlik və s. daxildir. Təsəvvür edin ki, tələbələr bir otaqda xalça toxuyurlar, o biri otaqda gümüş əşyalar düzəldirlər. Bizim rəqs ansamblımız bütün dünyanı gəzib-dolanır. Muğam sinfində Arif Babayev öz dəstəsi ilə dərs keçir. Yeganə xanım Axundova Azərbaycan və dünya musiqi incilərini tələbələrə öyrədir. Xorda bir çox ölkələrin tələbələri oxuyurlar. Yəni seçim azaddır, kimə nə yaxındırsa, kimin zövqünü nə oxşayırsa, onu da seçir.

- Başqa universitetlərdən fərqli olaraq Xəzər Universitəsində ibadət edən tələbələr üçün otaq da ayrılıb. Siz kitablarınızda "İslam sivilizasiyası" kimi bir mövzuya tez-tez toxunursunuz. Sizcə, Azərbaycanda islamın vəziyyəti necədir? Türkiyədə bir çox təhsil ocaqlarında qızları hicabla dərsə girməyə qoymurlar. Buna münasibətiniz necədir?

- "İslam və cəmiyyət", "cəmiyyətdə islam", "islam və müasirlik" çox həssas mövzulardır. Bizim universitədə "İslam və modernləşmə" mövzusunda tanınmış mütəxəssislərin, o cümlədən əcnəbi alim və ictimai xadimlərin iştirakı ilə seminar, konfrans, simpoziumlar keçirilir. Bir var tarixi islam, bir də var islam elmi və mədəniyyəti. İslam VII əsrdə yaranıb. Onun geniş ərazilərə yayılmasından sonra islam ölkələri dünyanın elm və mədəniyyət mərkəzinə çevrildi. Riyaziyyat, astronomiya, tibb, fəlsəfə kimi elmlər inkişaf edir, tarix, psixologiya, musiqi, təhsil çiçəklənirdi, Avropa isə qaranlıq çağda idi.

XII əsrdən etibarən İslam sivilizasiyası və islam ölkələri yavaş-yavaş zəifləməyə başladı. XV-XVI əsrlərdə hərbi cəhətdən çox güclü olan Şərq (Osmanlılar, Səfəvilər və Hindistan yarımadasında Böyük Moğollar adlanan türkdilli sülalələr) artıq elm, təhsil və iqtisadiyyatın təşkili sahələrində geriləmişdi. Bu dövlətlər güclənməkdə olan Avropa qarşısında müdafiəyə keçməyə məcbur oldular. Orta əsrlərdə ciddi islahatlar keçirə bilməyən Şərq yalnız XIX əsrdə bu barədə ciddi düşünməyə başladı, əlbəttə ki, öz azsaylı mütəfəkkir, yaradıcı insanlarının timsalında. Bu geriliyin əsas səbəbini bir qisim insanlar islam dinində görür, digərləri isə islami dəyərləri qorumaqla daha dinamik cəmiyyətə keçidin zəruriliyini iddia edirdilər.

Azərbaycanda, Misirdə, İranda, Osmanlı və Hindistanda da belə cərəyanlar mövcud idi. Bütün müsəlman dünyasında çıxış yolları aranır, bənzər siyasi proqramlar irəli sürülürdü. Əsasən avropalaşmaq, amma kimliyimizi unutmamaq kimi şüar və düsturlar meydana atılırdı.

Bu gün cəmiyyətimizdə islamı böyük dəyər kimi və əksinə, böyük təhlükə kimi qəbul edənlər var. Məsələnin kökü ondadır ki, bir var dini inanc – insanın içində olan, əxlaqını saflaşdıran iman, bir də var siyasət – dini məcburiyyət aparatına çevirən, xüsusi düzəldilmiş normalar: "sən mütləq namaz qılmalısan, mütləq başını bağlamalısan, belə olmalıdır və ya başqa cür olmalıdır". İnsanı nəyəsə məcbur etsən, o, həmin şeyə qarşı bir mexanizm axtaracaq, sonra da hücuma keçəcək.

Tələbələrin hicablanmasına qarşı çıxmağa gəlincə, götürək elə Türkiyəni. Cəmiyyətdə qorxu yaranır ki, millətdə birdən bir qapanma prosesi gedər, ölkə modern dün-

yadan geri qala bilər, dünyəvilik yox olar. Oxşar məsələ cəmiyyətimizdə, mediada, bir neçə dəfə parlamentimizdə müzakirə olunub. Məndən də müsahibə alıblar və mən öz fikirlərimi bildirmişəm. Bu, vicdan məsələsidir, nə hicablanmağa məcbur etmək olar, nə də zorla başını açmağa. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan müxtəlif dinlər arasında dialoq və dostluğun bərqərar olduğu, eyni zamanda İslam mədəniyyəti ilə dünyəviliyin qovuşduğu bir ölkədir.

- Hərəkətləriniz hər zaman təbiətinizdənmi doğub, yoxsa?.. "Ölümdən sonra yaşamaq istəyirsinizsə, özünüzdən sonra ölməz bir əsər buraxın". Hansı əsəri ölməz hesab etmək olar?

- Təkcə onu deyə bilərəm ki, humanitar və ictimai mövzuya aid yazılarımda, eləcə də şeir və poemalarımda hansısa bir şəxsi, bir siyasəti vəsf etməklə, ideoloji cəbhənin silahını daşımaqla məşğul olmamışam. Bu, təbiətimə ziddir, mən hər zaman təbiətimin istədiyini etmişəm və düşündüyümü cəmiyyətə açıqlamışam. İnsanın fikrinə hörmətlə yanaşmış, lakin onun vəzifəsinə, hansı təbəqədən olmasına baxmayaraq, düşündüklərimi onun üzünə olduğu kimi demişəm. Sözümlə əməlim bir-birinə həmahəng olub.

O ki qaldı ölməzliyə, bu, ağır məsələdir, onun cavabı zamandadır. Yazının gücünü göstərən meyar peşəkarlıq və səmimilikdir. Süni, içdən gəlməyən, uydurma ilə dolu əsərin ömrü çox olmaz. Səmimilik üzərində yazılan gözəl əsərsə yaşamağa haqlıdır və ölməz olmağa namizəddir. Zamanında çox səs-küyə səbəb olan bir sıra əsərlər sonrakı nəsillər tərəfindən heç oxunmayıb və yaxud da əksinə, öz zamanında qəbul olunmayan bir sıra əsərlər sonradan böyük rəğbət qazanıb.

- "Hər şey çox olduqda ucuz olar, bircə ağıldan başqa". Heç ağıllı olduğunuza görə zərər çəkmisiniz?

- Ağlıma görə heç zaman zərər çəkməmişəm, amma hisslərimə, emosiyalarıma görə çəkmişəm. Fikirlərimi gizlədə bilmədiyimdən bəzi işlərim ləngiyib. Çox vaxt gözləyiblər ki, mən həmin an susum, amma mən danışmışam və ya gözləyiblər ki, danışım, mən susmuşam. Bu da ağlımdan yox, xasiyyətimdən irəli gəlir. Xarakterim, xasiyyətim bəzən məni çətin vəziyyətlərə salıb...

- Xoşbəxtliyi bir sözlə ifadə edin...

- Həyatın mənası xoşbəxtlikdir. Hər bir insan xoşbəxt olmaq üçün yaşayır. Xoşbəxtlik xoş, faydalı işə olan EHTİRASDIR. İnsanın hər hansı bir işi yaradıcı ehtirasla yaşamasıdır; elm olsun, sənət olsun, iş dünyası və ya idarəçilik olsun, fərq etməz. Yaratmaq eşqi, yeni addım atmaq ehtirası insanı xoşbəxt edir.

Sevinc İSMAYIL
"Ayna" qəzeti,
17 yanvar 2009-cu il

ГАМЛЕТ ИСАХАНЛЫ: «В КАЖДОМ УНИВЕРСИТЕТЕ ДОЛЖНА БЫТЬ НЕКАЯ УНИВЕРСИТЕТСКАЯ КУЛЬТУРА»

Ректор Университета «Хазар», профессор Гамлет Исаханлы считает, что коррупция и низкий уровень преподавателей в ВУЗах Азербайджана является главной причиной отсутствия университетской культуры.

«В каждом университете должна быть некая свойственная ему университетская культура. К сожалению, у нас, вообще говоря, этой культуры нет. Причиной отсутствия этой культуры является наличие коррупции в вузах и низкий уровень преподавателей». Как передает «Новости-Азербайджан», об этом заявил **Гамлет Исаханлы** в пятницу на семинаре «Культурология и высшее образование».

Профессор отметил, что во многих университетах Европы преподаватели общаются со студентами как с равными.

«У нас же, к сожалению, в этом вопросе наблюдаются недостатки», - отметил он.

По словам Г.Исаханлы, «азербайджанское образование не имеет своей системы».

«У нас нет чисто нашей системы высшего образования. За период своей истории, мы прошли через исламскую, европейскую и советскую систему, каждая из которых наложила определенный отпечаток на отечественную систему образования», - отметил он.

Г.Исаханлы также добавил, что, согласно показателям 2004 года, в Европе 71,2% населения имеют высшее образование, а в Азербайджане только 14,8%.

Day.Az
30 января 2009 г.

HAMLET İSAXANLI FOQTSUN UĞUR QAZANACAĞINA INANMIR

"Foqts Azərbaycan Millisinin baş məşqçisi kimi bütün enerjisini ortaya qoymur"

AFFA-nın İcraiyyə Komitəsinin sabiq üzvü, "Xəzər Universiteti" klubunun yaradıcısı Hamlet İsaxanlı uzun müddətli fasilədən sonra Azərbaycan futbolunun durumuyla bağlı "qol.az"a müsahibə verib. Müsahibəni ixtisarla təqdim edirik.

- Hamlet müəllim, futbol üçün darıxmırsınız ki?

- Açığı, dəhşətli dərəcədə darıxmamışam. Bəlkə də başqa maraqlı işim olmasaydı, darıxardım. Amma bilirsiniz ki, mən yaradıcı insanam, bundan başqa, Xəzər Universitəsinə rəhbərlik edirəm, tez-tez istər şəxsi, istərsə də rəsmi işlərlə bağlı xarici səfərlərdə



oluram. Bu mənada, darıxmağa vaxt olmur; adətən, bekar adamlar daha çox darıxırlar. Amma təbii ki, içimdə bir istək yatır, bir nisgil var. Çox istəyirəm ki, bizim də güclü klublarımız, milli komandamız olsun və gedib onların oyunlarını izləyim.

- Sizcə, Azərbaycan futbolunda sizin dövrlə müqayisədə nə dəyişib?

- İlk növbədə klubların maddi imkanları xeyli yaxşılaşıb. Əvvəllər elə komandalar vardı ki, maliyyə durumu sıfıra bərabər idi. Ortabab komandaların büdcəsi 40-100 min dollar arası dəyişirdi. İmkanlı klublarda isə bu göstərici 200-300 min dollar təşkil edirdi. İndi isə bizim klubların milyonları, hətta on milyonları var. Klublar arasında güclü rəqabət yaranıb. Amma peşəkarlıq baxımından məsələyə yanaşsaq, hələ də ciddi irəliləyiş görmürəm. Oynanılan oyunun keyfiyyətində də yaxşılığa doğru dəyişiklik yoxdur.

Xaricdən məşqçi və futbolçuların gətirilməsinə müsbət yanaşıram. Amma bunun həddindən artıq olmasının əleyhinəyəm. İmkan daha çox yerli futbolçulara yaradılmalıdır və uşaq futboluna diqqət artırılmalıdır. Hazırda bizim imkanlı klublarımızın gücü 2-3 uşaq komandası saxlamağa imkan verir. Xaricdən gələn futbolçu Azərbaycan futbolunda az iz qoyacaq. Çünki legioner, adından da göründüyü kimi, legionerdir. Bir gün orda oynayır, bir gün burda. Sabah kim bir manat artıq pul versə, çıxıb ora gedəcək. Futbol elə şeydir ki, burada bayraq, dövlət atributları önəmli rol oynayır. Türkiyədə hamı dövlət himnini əzbər bilir. Bu isə milli ruhun əsas tərkib hissəsidir. Əcnəbi futbolçuda bu hiss yoxdur axı... Mən əcnəbi futbolçuların milliləşdirilərək əsas milli komandaya cəlb olunmasının da qəti əleyhinəyəm.

- "İnter"in hazırkı rəhbərliyi ilə münasibətləriniz necədir?

- Deyərdim ki, heç bir münasibətim yoxdur. O vaxt klubu indiki rəhbərliyə təhvil verərkən söhbətimiz olmuşdu və onların da diqqətinə çatdırmışdım ki, "Xəzər Universieti"ni həvəskar komandadan necə gətirib ölkənin 4-cü gücü komandası etdik. Sadəcə, hə-

min vaxt vəziyyət elə idi ki, futbola böyük maliyyə axını başlamaqdaydı və bu da bizim imkanımız xaricində idi. Çünki universitetin özünün xeyli qayğısı vardı. Düzdür, həmin vaxt mənə demişdilər ki, istəsəniz, siz də klubumuzdan ayrılmayın. Lakin sonradan bir xəbər çıxmadı. Görünür, mənə ehtiyacları olmayıb.

-Deyilənə görə, o vaxt AFFA rəhbərliyi tərəfindən sizə qarşı haqsızlıq olub...

-Mən bunu ciddi haqsızlıq kimi qəbul etmirdim. Bilirsiniz ki, Fuad Musayevin vaxtında futbolumuzda böyük qalmaqal yaranmışdı. Hətta çempionat dayandırılmışdı. Həmin vaxt mən bu münaqişənin yatırılması üçün İcraiyyə Komitəsinin üzvü kimi çox aktiv fəaliyyət göstərdim. Sonradan isə Ramiz Mirzəyevin dövrü başlandı. Əvvəlcə demokratik əhvalda idik. Sonra davalar, narazılıqlar artdı. O dövrdən başlayaraq İcraiyyə Komitəsinin fəaliyyətində geriləmə müşahidə olunmağa başlandı. İş çox zəif qurulurdu. İcraiyyə Komitəsinin üzvləri arasında çəkişmələr başlamışdı. Mən də elə insanam ki, formallığı xoşlamıram. Yəni ildə 1-2 dəfə gedib iclasda iştirak etmək düzgün deyildi. Gərək çalışdığın sahədə xeyir verəsən. Çox istəyirdim ki, aradakı bu intriqanı götürüm. Lakin bir dəfə AFFA-nın baş katibi (*Fuad Əsədov* – **red.**) televiziyada çıxış edərək deyir ki, bəs, İcraiyyə Komitəsinin heyətini dəyişmək lazımdır. Bu isə mənə bir işarə kimi təsir elədi və AFFA prezidenti Ramiz Mirzəyevə məktub yazdım. Sonradan Mirzəyev özü mənə zəng etdi, hətta mənimlə görüşmək üçün universitetə də gəldi. O vaxt ondan soruşdum ki, bu nə söhbətdir? Cavab verdi ki, "AFFA-da kimin kefi nə istəyir, onu da edir. Mənim o ifadə ilə heç bir bağlılığım yoxdur". Həmin hadisədən sonra İcraiyyə Komitəsinin 1-2 iclasına getdim və bir dəfə mənə hansısa qəzetdən zəng vurdular ki, bəs Hamlet müəllim, artıq İcraiyyə Komitəsinin heyəti dəyişdirilib və siz yeni heyətdə yoxsunuz. Mən də dedim ki, eybi yox. Onsuz da mən özüm məktub yazaraq bundan imtina etmişdim.

- Sizcə, bütün bunların arxasında kim dura bilərdi?

- Vallah, bunu araşdırmadım, çünki heç marağımda da deyildi.

- Sizin haqqınızda deyirdilər ki, futbol adamı deyilsiniz.

- Bilmirəm, futbol adamı deyəndə nəyi nəzərdə tuturdular. Futbol adamı o şəxsdir ki, həqiqətən futbola xeyir verir. Mənim fikrim belə idi ki, İcraiyyə Komitəsində iş adamları da fəaliyyət göstərə bilər, görkəmli ictimai xadimlər də, digər sahələrin adamları da. Çünki İcraiyyə Komitəsinin üzvü futbol oynamır. Onun vəzifəsi düzgün idarəçilik və futbolun gələcəyinə hesablanmış strateji planlar hazırlamaqdır.

- Sizcə, AFFA prezidenti olduğu dövrdə Ramiz Mirzəyevin ən böyük səhvi nədə oldu?

- Ramiz müəllim gəldiyi ilk günlərdə çox yaxşı işləyirdi, səmərəli planları vardı. Amma dediyim kimi, onun federasiyaya rəhbərliyi dövründə İcraiyyə Komitəsində yaranmış intriqa, hərc-mərclik ciddi problemlərin yaranmasına gətirib çıxardı. Bildiyiniz kimi, rəhmətlik Mirzəyevlə veteran futbolçumuz İsgəndər Cavadovun münasibətləri yaxşı deyildi. Hətta bir dəfə iclasların birində bir-birinə qarşı qarşılıqlı təhqirlərə də yol vermişdilər. Bir dəfə İcraiyyə Komitəsinin növbəti iclasına gəlirdim və gördüm ki, Cavadov dayanıb aşağıda, yuxarı çıxmayıb. Soruşdum niyə burdasan, dedi ki, məni içəri buraxmırlar. Bu məsələ ilə bağlı Ramiz müəllimlə görüşdük. Mirzəyevə dedim ki, belə münaşibət düzgün deyil. Ola bilsin ki, Cavadov sizi təhqir edib, amma onun iclasa büraxılmaması çıxış yolu deyil. Qoyun, gəlsin iclasda iştirak etsin, səhvi varsa, sizdən üzr istəsin. Həmin vaxt Mirzəyev mənə qayıtdı ki, "həmişə sənin sözünə qulaq asmışam, amma bu dəfə mümkün deyil". Yəni deməyim odur ki, Ramiz müəllimin dövründə İcraiyyə Komitəsinin fəaliyyətində müsbət tərəflərlə yanaşı, qüsurlar da çox idi.

- "İnter"in sabiq baş direktoru Alı Alıyev müsahibəsində bildirmişdi ki, AFFA-nın o vaxtkı rəhbərliyinin fəaliyyəti əsl mafioz qurumun fəaliyyətini xatırladırdı. Bu fikrə münasibətiniz?

- Mən hesab etmirəm ki, bu fəaliyyət mafioz qurumun fəaliyyəti səviyyəsindəydi. Amma nöqsanlar var idi. Bir sözlə, korporativ idarəetmə yox idi. Korporativ idarəetmə isə bir nəfərin yox, ən azı 4-5 nəfərin birgə fəaliyyətidir.

- Foqtsun milli komandamıza baş məşqçi təyin olunmasına münasibətinizi də bilmək maraqlı olardı. Siz necə düşünürsünüz, almaniyalı ciddi uğura nail ola biləcək?

- Çox təcrübəli futbol adamıdır. Bəlkə də nəsə edə bildi. Amma ciddi uğur qazanacağına inanmıram. Foqtsdan əvvəl də bizim millidə bir təcrübəli şəxs çalışmışdı. Karlos Alberto Torresi nəzərdə tuturam. Bilirsiniz, millinin baş məşqçisi elə vəzifədir ki, gərək burada çalışan insan tam gücünü, enerjisini ortaya qoysun. Mənə elə gəlir ki, Foqts Azərbaycan millisinin baş məşqçisi kimi bütün enerjişini ortaya qoymur.

"Azadlıq" qəzeti,
7 fevral 2009-cu il

David Draper:

" İNGİLİS DİLİ NƏ ÜÇÜN VACİBDİR?"

David J.Draper ingilis dili və ədəbiyyatı üzrə mütəxəssisdir. 1974-cü ildən 1998-ci ilə qədər İngiltərənin Surrey qraflığında müəllim və Təhsil Komitəsinin nümayəndəsi (1995-1996-cı illərdə prezidenti), 1998-ci ildən 2007-ci ilə qədər Türkiyənin Ankara şəhərində Britaniya səfirliyinin nəzdində fəaliyyət göstərən məktəbdə baş müəllim olmuşdur. 2007-ci ilin avqust ayından isə Bakıda fəaliyyət göstərən Britaniya məktəbinin direktoru vəzifəsində çalışır. David Draper bir sıra konfrans, seminar, workshopların iştirakçısı, həmçinin Avropada fəaliyyət göstərən bəzi təhsil komitə və təşkilatlarının üzvüdür.



Martın 16-da Xəzər Univesitəsinin Humanitar və sosial elmlər fakültəsinin müəlliməsi Xəyalə Məmmədovanın təşəbbüsü ilə David John Draper "World English" ("Dünya İngilis dili") dərsimizdə iştirak etdi. Onu da qeyd edək ki, bu onun Xəzər Universitəsinə ilk gəlişii deyildi; 2008-ci ildə Xəyalə Məmmədovanın tədris etdiyi "Britaniyaşünaslıq" və "İngilis dili ünsiyyəti" dərslərində tələbələrin təşkil etdiyi bir sıra layihələrdə iştirak etmişdı. David Draperi dəvət etməkdə əsas məqsədimiz "World English" dərsində keçdiklərimiz haqqında bilik dairəmizi daha da genişləndirmək idi.

Bildiyimiz kimi, ingilis dili artıq beynəlxalq səviyyəli bir dil olduğu üçün dünyada milyonlarla insan bu dili öyrənir və ingilis dilində sərbəst danışmaq istəyir. Buna görə bu dil dünyada ən çox öyrənilən dildir. Təbii ki, dilin öyrənilməsində də müəyyən səbəblər vardır; belə ki, bir çoxları xaricdə yaşamaq, digərləri işləmək, ya da səyahət etmək məqsədilə ingilis dilini öyrənmək istəyirlər. İngilis dilinin tədrisinə tələbat çox olduğuna görə müxtəlif proqramlar hazırlanmışdır. Eyni zamanda, ingilis dilində televiziya proqramlarına baxmaq və radio verilişlərini dinləmək, qəzet və jurnal oxumaq, mütaliə etmək dilə yiyələnmək üçün yaxşı vasitələrdən hesab edilir. İngilis dilinin lüğət tərkibi çox zəngindir. Böyük lüğətlərdə sözlərin sayı 600-650 minə çatır.

Son zamanlarda Amerika və Britaniya ingilis dili variantları arasında fərqlər gündən-günə artır. Bir çoxları Amerikaya gələndə ingilis dilində sərbəst danışır, lakin amerikalıların danışdıqlarını başa düşə bilmirlər, çünki təhsil ocaqlarında tədris olunan ingilis dili danışıq dilindən fərqlidir. Buna görə də, Britaniya ingilis dilini Avstraliya, Yeni Zelandiya, ən əsası isə Amerika ingilis dili variantından fərqləndirən əsas xüsusiyyətlər haqqında geniş məlumat almaq üçün David Draper kimi mütəxəssisin məruzəsinə ehtiyac duyduq.

İNGİLİS DİLİNİN BRİTANİYA VƏ AMERİKA VARİANTI ARASINDAKI SƏCİYYƏVİ FƏRQLƏR

David Draper mühazirəsinə George Bernard Shawnun: "İngiltərə və Amerika bir dildə danışan iki dövlətdir" sözləri ilə başladı. İngilis dilinin

tarixi haqqında qısa məlumat verdikdən sonra *American English*, yəni ingilis dilinin Amerika variantının ABŞ-da işlənən ingilis dili dialektlərinin toplusu olduğunu vurğulayaraq, ümumi ünsiyyət vasitəsi kimi istifadə olunsa da, rəsmi milli dil hesab edilmədiyini bildirdi: "İngilis dilinin Amerika variantının tarixi əsasən 3 hissəyə bölünür: 1. Yerli, Kolonial mərhələ (1607-1776). 2.Milli mərhələ (1776-1898). 3.Beynəlxalq mərhələ (Müasir zaman).Amerikada ingilis dilinin mövcud olması, təbii ki, Britaniya koloniyaları dövründən başlanır. Sonrakı dörd yüz ildə Şimali Amerikada ingilis dilinin tələffüzündə və qrammatikasında cüzi dəyişikliklər baş verdisə, dilin lüğət tərkibində dəyişikliklər özünü daha qabarıq göstərdi. İngilis dilli əhali İngiltərədə yaşayan həmvətənləri ilə az ünsiyyətdə olduğundan fərqli şəkildə danışılırdı. İngilis dilli əhalinin Şimali Amerikaya axını, əsasən, XVII əsrə təsadüf edir. Sakinlərin İngiltərənin müxtəlif bölgə və sosial qruplarından olması ingilis dilinin inkişafında homogenik effekt yaradırdı.

